his poems “Brother” which he had dedicated to Samad Vurgun after his death. Calling this poem “Brother” was not a coincidence at all.

After Samad Vurgun’s death, Ashig Shamshir met people with cold and stange glances and he felt deeply that Samada Vurgun was like a brother to him.

Besides being shown as a symbol of manliness, greatness, loftiness in ashug poems, the mountains and their fascinating beauty always inspired poets and became the main subject of their poems Our ancestors considered the mountains as the object of mythological toughts, worshiped it and took refuge in it. It is not a coincidence that we often come across the active meaning system of the character of mountain not only in ashug poems, but also in stories, sagas and so on. Belief in mountain, taking refuge in it, wanting help form it were so strong that the montain became the most active and longlived character of Azerbaijani Folklore.

***Rəyçi: dossent İbrahimov Cəfər***
***BDU-Qazax filialı pedaqoji fənlər kafedrasının 15 mart 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olma tarixi 03 aprel 2023-cü il***

**UOT: 31.**

# ŞUŞA AZƏRBAYCANIN TARİX, MƏDƏNİYYƏT TOLERANTLIQ VƏ MULTİKULTURALİZM MƏRKƏZİDİR

***Əliyev Sədrəddin Malik oğlu***
***Gəncə Dövlət Universitetinin***
***Sedreddin.elixanli@mail.ru***

**Xülasə:** *Azərbaycanda multikultural cəmiyyət çoxlu saylı xalqların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və sülh şəraitində yaşaması deməkdir.Multikulturalizm adlandırdığımız birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən münasibətləri bütün tarixi dövrlərdə görə bilərik. Xalqımızın zəngin multikultural ənənələri tolerantlığa, dialoqa, kompromisə, qarşılıqlı yardıma, vətənpərvərliyə, mərhəmətə, birgəyaşayış qaydalarına əsaslanır. Azərbaycanda mövcud olan etnik-dini dözümlülük və milli-mədəni müxtəliflik mühiti ölkəmizi dünya miqyasında çoxmillətli, çoxkonfessiyalı və mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı kimi tanıtmışdır. Ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri qarşılıqlı dostluq,əminamanlıq, sülh və əməkdaşlıq şəraitində yaşayır, respublikanın ictimai-siyasi, iqtisadi və mədəni inkişafında mühüm rol oynayır, eyni zamanda, Azərbaycanın taleyüklü məsələlərində yüksək həmrəylik nümayiş etdirirlər. Azərbaycanda tarixində elə bir dövr yoxdur ki ,bu ərzidə yalnız azəri türkləri yaşasın. Bizimlə yanaşı ləzgilər, yəhudilər saxurar, avarlar, talışlar, ingiloylar, malokanlar udilər, tatlar, kürdlər və başqa etnik xalqlar yaşamışlar. Azərbaycan xalqı digər etnik xalqlara qarşı ayrı seçkilik etməyib onları ərazisindən qovmayıb. Azərbaycanda yaşayan digər, milli azlıqlar xalqımızla qaynayıb qarışıb, ortaq mədəniyyətli olublar. Dövlətimiz Qarabağın dağlıq hissəsində yaşayan erməniəsilli vətəndaşlarımızı da bu qəbilə aid edir. Onların Azərbaycan qanunlarını qəbul etməsi və digər etnik azlıqlar kimi, Konstitusiyada bərqərar olmuş hüquqlarının bərpası dövlətimizin ən prioritet məsələsidir. 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.*

**Açar sözlər:** multikulturalizm, tolerantlıq, mədəniyyət.
**Ключевые слова***:* мультикультурализм, толерантность, религия, , культура.
**Key words:** multiculturalism, tolerance, religion, culture.

2020-ci ilin 8 noyabrı Azərbaycan tarixinə şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu..[10,s 9-10]

Dövlət başçımızın sərəncamı ilə 2022-ci ilin "Şuşa ili" elan edilməsi Şuşa sevgisinin hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçası olduğunu bir daha təsdiqlədi. Çünki bu sərəncam hər bir soydaşımız tərəfindən sevinclə qarşılandı.

Qeyd etmək lazımdır ki, Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır. ,[23 s.42-48]. XVIII əsrin ikinci yarısından başlayaraq, şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da güclənmişdir. Xanlığın ərazisində Əsgəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdi. Şuşa şəhərinin memarlıq siması üçün, şəhərin yerləşdiyi ərazinin özünəməxsus dağ peyzajı ilə səsləşən mənzərəlsi xarakterikdir. Şəhərin daha qədim olan şərq tərəfi sakit relyefə, sonradan məskunlaşmış qərb tərəfi isə amfiteatr xüsusiyyətinə malikdir. Şəhərin inşası zamanı Şuşa və ətrafında geniş yayılmış ağ qaya daşlarından istifadə edilmişdir.[3, s244]Şuşa şəhərinin XVIII-XIX əsr mülki memarlığında evlərin həllində çoxobrazlılıq diqqət çəkir; Şuşada inkişaf etmiş şəhər və saray tipli yaşayış evlərinin inşası ilə yanaşı, Azərbaycan ərazisində daha qədim dövrlərdə yayılmış qaradam tipli evlərin inkişaf etmiş forması olan Qarabağ daş qaradamlarının da inkiafı dava etdirilirdi.Şuşanın sıravi yaşayış evləri isə öz memarlıq-planlaşdırma xüsusiyyətlərinə görə Azərbaycanın digər rayonlarında həmin dövrlərdə inşa edilmiş yaşayış evləri ilə eyniyyət təşkil edir.Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdi. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur.[8, s 254]Qarabağın çar Rusiyası tərəfindən işğalından sonra xanlığın ərzasində ermənilər məskunlaşdırılmağa başlandı.Çar Rusiyası dağıldıqdan sonra Sovet Rusiyası yenidən müsəqil Azərbaycan xalq cümhuriyyətinin ərazisini işğal etdi. [22, s.37-53 ] Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə Azərbaycanın inzibati-ərazi bölgüsü kobudcasına pozulmuşdu. 1923-cü ildə qəbul edilən bir qərarla Şuşa, Cavanşir və Qubadlı qəzalarının əraziləri bölünüb DQMV yaradıldı. Bu hadisə təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də ermənilərin ölkəmizə qarşı gələcək ərazi iddiaları üçün bir vasitə olmuş və elə o vaxtdan da Dağlıq Qarabağ termini meydana çıxmışdır. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə vilayət mərkəzinin Xankəndi olması göstərilsə də, az sonra 1923-cü il sentyabrın 18-də Dağlıq Qarabağ vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilərək bolşevik maskası geyinmiş, 1918-ci il martında azərbaycanlılara qarşı soyqırımın rəhbəri olan S.Şaumyanın şərəfinə "Stepanakert" adlandırıldı. Bununla da, Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu.[16, s 3] s.

Sovet dövründə ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Dağlıq Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərirdi. Hər şeydən əvvəl Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşanın tarixi keçmişini yaxşı bilən Heydər Əliyev bu şəhərin inkişafına çox böyük qayğı göstərirdi. Ümummilli Lider Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu güclənirdi. Ölkənin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular. [5,140 s].

Ümummilli Lider 1923-cü ildə məqsədyönlü şəkildə dağlıq və aran hissələrinə bölünmüş Qarabağın təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Bu, səbəbsiz deyildi. Erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər. Onların bu niyyətlərinin qarşısını almaqda, Yuxarı Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq böyük rol oynaya bilərdi. Ağdam-Xankəndi dəmir yolu çəkildi. 1979-cu il yanvarın 12-də həmin yol Ümummilli Liderin iştirakı ilə istifadəyə verildi. Həmin dəmir yolu xətti ilə muxtar vilayətin respublikanın digər rayonları ilə daha sıx iqtisadi əlaqəsi yaradıldı. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi sahəsində strateji addımı və böyük tarixi xidməti idi. . [5,123 s].

Dəmir yolu xəttinin açıldığı gün Şuşaya gedən Ümummilli Lider şəhərdə Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə xüsusi göstəriş verdi. Ulu Öndər, eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu. Şuşa rayonunun rəhbərləri ilə keçirdiyi görüşdə Ümummilli Lider tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". Heydər Əliyevin bilavasitə səyləri nəticəsində, az sonra Şuşa şəhərini tarix-memarlıq qoruğu elan edən qərar qəbul olundu.

Həmin illərdə ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağa göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Ümummilli Lider Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi.

Ona görə də açılışa gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə Ümummilli Lider ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, vilayətə tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.[18.s 4]

Ümummilli Liderin M.P.Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq, onun Dağlıq Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada "Poeziya evi"ni açaraq, Vaqif poeziya günlərində iştirak etdi. Bununla yanaşı, ulu öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Ümummilli Liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Ulu Öndər erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi. Ümummilli Liderin həmin gün Şuşada şəhər ictimaiyyəti ilə keçirilən görüşləri hər bir şuşalının yaddaşında unudulmaz iz qoymuş və bu gün də xatirələrdə yaşayır.

1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə Şuşa şəhərinin və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələrinin siması xeyli dəyişdi. Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı. Bu, azərbaycanlı ziyalıların daimi iş yeri ilə təmin olunmasına, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, azərbaycanlı əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaratmışdı. .[18.s 28]

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə, Ermənistan SSR ərazisində anti-Azərbaycan, antitürk təbliğatı daha da güclənməyə başladı.XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. 1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün yuxarı Qarabağ zəbt olundu. Nəticədə 289 kvadratkilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.[8,63]

1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəb məhz Şuşada inşa olunub. Şuşa 1 nömrəli tam orta məktəb Azərbaycanın zəngin tarixə malik olan qədim məktəblərindəndir.[17,s 63]İşğala qədər 1 nömrəli tam orta məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağını da erməni vandalları tamamilə dağıdıblar. Qarabağa, Şuşaya böyük qayıdışın ilk təməlləri sırasında Şuşa 1 nömrəli məktəbinin də olması, Prezident İlham Əliyev tərəfindən ötən ilin mayın 12- də məktəbin təməlinin qoyulması təhsilə olan ali dəyərin göstəricisi olmaqla yanaşı, həm də qədim və zəngin ənənələri olan Şuşa məktəbinin yenidən

qurulması üçün dövlət qayğısının nümunəsi idi. Ötən ilin payızında Bakının 2 nömrəli Texniki-Humanitar Liseyi ilə Şuşanın bu qədim məktəbi arasında əməkdaşlıq sazişi imzalandı. Bu sazişi, hər şeydən öncə Bakı ilə Şuşa arasında uğurlu təhsil körpüsü adlandırmaq olar.

İnanırıq ki, "Şuşa İli"nin elan olunması ilə bu təhsil körpüsü daha da möhkəmlənəcək, əlaqələrimizə öz töhfələrini verəcək."Şuşanın Azərbaycanın siyasi, iqtisadi, mədəni-mənəvi həyatındakı rolunu bir daha bütün dünyaya nümayiş etdirmək, həmçinin bu tarixi şəhərin bərpasını sürətləndirmək məqsədilə "Şuşa İli" elan edilməsi qarşıdakı dönəmdə Azərbaycan naminə daha böyük işlərin görüləcəyinə əminlik yaradır Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi.[15.s16] Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.[7.s 63]

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". .[18.s 4]

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il 8 noyabr Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" .[11.s 4]

Ölkəmizin apardığı multikulturalizm siyasətinin nəticəsidir ki,Azərbaycan öz torpaqlarının azad edilməsi uğrunda müharibəyə cəlb olunarkən,onun ərazisində yaşayan bütün xalqlar vətənin qoruması uğrunda mübarizəyə qalxdılar. 44 günlük Şanlı Vətən müharibəsində də işğal altında olan torpaqlarımızın azad oliması üçün Azərbaycanı öz vətəni hesab edən bütün xalqların nümayəndələri döyüşdülər.

Qarabağın tacı hesab olunan Şuşada keçirilən "Xarıbülbül" festivalında ölkəmizdə yaşayan bütün xalqların nümayənləri iştirak etdilər.[13,s 16]Bu Qarabağın azadlığı uğrunda döyüşən ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələrinin mənəvi haqqı idi.Biz bu gün üçün qəhrəman oğullarımıza borcliyuq. Azərbaycanda yaşayan bütün etnik xalqların nümayəndələri bizimlə həmrəylik göstərdilər, bir yumruq ətrafında birləşdilər və torpaqlarımızın azdlığı urunda döyüşdülər. Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir.Cıdır düzündə 30 ildən sonra bayram tədbiri keçirildi. Bu bayrama Azərbaycan yaşayan bütün xaqların nümayəndələri dəvət

olunmuşdular. Bu festivalda ölkəmizdə yaşayan bütün xaqların müsiqi mədəniyyəti nümayiş olundu. Biz onlarla birlikdə sevincimizi, kədərimizi, qələbəmizi birlikdə qeyd etdik. “Xarıbülbül” festivalı ilə biz dünyaya miltikulturalizm və tolerantlıq mesajı verdik. **[13,s 10]** 44günlük Vətən müharibəsi Azərbaycanda yaşayan bütün xalqların dosrluq, həmrəylik, qardaşlıq şəraitində yaşadğını bir daha sübut etdi. Bu mənada, parlaq Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi bunun ən bariz nümunəsi kimi səciyyələnir. Azərbaycan Prezidenti İlham Əliyev bunu belə ifadə edib: “Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi. Bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər”. .[11.s 7]

Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzünün qurbanları iki əsrə yaxın idi ki, dinc əhali ilə bərabər, həm də tarixi-dini abidələr, müqəddəs ocaqlar və məbədlərdir. Bu tarixi-dini abidələr xalqımızın milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini və adət-ənənələrini özündə təcəssüm etdirən müqəddəs məkanlardır. Buna görə də Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən maddi-mədəniyyət nümunələrini, o cümlədən, tarixi-dini abidələri məhv etmək Ermənistanın təcavüzkar siyasətinin tərkib hissələrindən biri olub. Ermənilər həmin abidələri məhv etməklə və ya özününküləşdirməklə bu yerlərin onlara məxsus olması barədə beynəlxalq ictimaiyyətdə rəy formalaşdırmağa çalışırdılar. Ancaq onların bütün cəhdlərinə baxmayaraq, tarixi saxtalaşdırmaq istəkləri baş tutmadı. Bu gün işğaldan azad olunan torpaqların mənzərəsi erməni vandalları tərəfindən bütün dini və mədəniyyət abidələrimizin dağıdıldığını aydın görməyə imkan verir. Müharibə başa çatandan sonra ermənilərin vəhşiliklərinin şahidi olan bir sıra ölkələrin nümayəndələri bu qəddarlıq barədə beynəlxalq ictimaiyyətə məlumat verdikləri bir vaxtda bəzi Qərb liderləri Azərbaycanın nəzarətinə keçən torpaqlarda xristian məbədlərinin taleyindən narahat olduqlarını ört-basdır edə bilmirdilər. İslamofob hissləri alovlandıran, İslam müqəddəslərinin təhqir olunmasına göz yuman və hətta, onları təhqir edənlərə bəraət qazandıran bu şəxslər əbəs yerə narahat olurlar. Çünki artıq bütün dünyaya bəllidir ki, Azərbaycan tolerantlıq və multikulturalizm nümunəsidir. Ölkəmizdə bütün milli azlıqların hüquqlarına, müxtəlif dinlərin nümayəndələrinə hörmətlə yanaşılır. Azərbaycan xalqı mədəni irsin hər bir nümunəsinə ehtiram göstərir, tarixi sərvət kimi yanaşır və onları qoruyur. **[13,s 18]**

Azad edilən Qarabağ və Şərqi Zəngəzurda, o cümlədən Şuşada həyat yenidən canlanmışdır.Erməni vandalizminin qurbanına çevrilmiş yaşayış məskənlərimiz, tarixi-mədəni, dini abidələrimiz bu gün Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə təmir-bərpa edilir, yeni obyektlərin təməli qoyulur, infrastruktur yenidən qurulur. “Şuşa İli” çərçivəsində həm dövlət, həm özəl qurumlar, qeyri-hökumət təşkilatları, media institutları tərəfindən Şuşanın tarixi, onun Qarabağın və bütövlükdə Azərbaycanın iqtisadi, mədəni həyatında oynadığı rol, işğal dövründə məruz qaldığı vandallıq, Azərbaycan Ordusunun şəhəri işğaldan azad edərkən göstərdiyi misilsiz qəhrəmanlıq və digər vacib məsələlərin geniş təbliği bütün dünyaya bir daha sübut edəcək ki, Qarabağ, Şuşa əzəli Azərbaycan torpağıdır, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb və 30 illik erməni işğalına son qoyaraq haqqı olan torpaqlarına geri dönüb. Şuşa bu gün yenidən qurulur, mədəniyyət paytaxtı Şuşada şəhərin əsl tarixi simasının bərpası istiqamətində bir-birinin ardınca nəhəng layihələr gerçəkləşdirilir. Bu layihələr sırasında qısa müddətdə Şuşanın Baş planının hazırlanması, şair, ictimai xadim Molla Pənah Vaqifin büstü və muzey-məqbərə kompleksinin əvvəlki görkəminə geri qaytarılması, dahi Üzeyirin heykəlinin, Bülbülün ev-muzeyinin və heykəlinin açılışları, həmçinin Şuşadakı tarixi, dini və memarlıq abidələrinin bərpası, erməni vandalizminin qurbanı olan tarixi Şuşa məktəbinin yenidən inşası burada aparılan kompleks quruculuq, bərpa işlərinin tərkib hissəsidir. Quruculuq işləri ilə paralel olaraq Qarabağda, Şuşada böyük tarixi və mədəni əhəmiyyət kəsb edən layihələrin icrası,

tədbirlərin keçirilməsi Şuşanın beynəlxalq aləmdə tanıdılması baxımından çox önəmlidir. Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin yenidən bərpa olunaraq təşkili, Cıdır düzündə gerçəkləşən, ruhumuza toxunan "Bayatı-Şiraz"ın əks-sədası ilə nəinki Qarabağa, bütün dünyaya səs salan məşhur "Xarıbülbül" musiqi festivalı bütün dünyaya verilən mesaj idi. Xüsusilə Ermənistanın havadarlarına, münaqişənin həllində hərb yolunun olmadığını bildirən dövlətlərə mesaj idi: hərb yolu ilə, oğullarımızın qanı bahasına haqqımız olan ata-baba torpaqlarımızı azad etdik və bu gün burada, öz torpağımızda milli-mənəvi dəyərlərimizə sahib çıxırıq.[11,s20]

"Şuşa İli"nin elan olunması ilə 2022-ci ilin ilk günlərindən Azərbaycan vətəndaşlarının Şuşaya səfərlərinə start verildi. Azad edilən ərazilərə ilk avtobus reyslərinin başlanması bu ərazilərin həm iqtisadi-sosial, həm də humanitar inteqrasiyasında mühüm rola malikdir. Səfərlərin başladığı ilk günlərdən istər Şuşada doğulub-böyüyən, o torpağın sakinləri olsun, istərsə də məmləkətimizin fərqli bölgələrində yaşayanlar, fərq etməz, 28 il Şuşadan uzaq qalan insanlar axın-axın onun ziyarətinə tələsirlər. Qədim yurd yerimiz olan Şuşanı, işğal dövründə erməni barbarlığını, qəhrəman Azərbaycan əsgərinin qazandığı şanlı Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işlərini öz gözləri ilə görmək istəyirlər. İstər-istəməz bir sual yaranır. Bir şəhər nə qədər sevilərmiş? Bir şəhər insan ruhuna, düşüncələrinə nə qədər təsir edərmiş? Adı çəkiləndə uşaqdan-böyüyə üzlərə təbəssüm, gözlərə sevinc qonur. Bircə kəlmə Şuşadan söz sal, bitməyən dastanlar, əfsanələr danışsın yurdumuzun insanı. Belə bir təmənnasız sevgini insan yalnız öz doğma torpağına göstərə bilər. Saxta iddialarla Qarabağı, Şuşanı özününküləşdirməyə çalışan erməni bu 30 ildə nə etdi? Yalnız yandırmaq, talan etmək, viran qoymaqla məşğul oldu. İnsan öz torpağına qarşı bu şəkildə barbarlıq nümayiş etdirərmi? Onların özlərinə də gün kimi aydın idi ki, bu torpaqlarda müvəqqətidirlər, Qarabağın əsl sahibləri gec-tez öz yurdlarına geri dönəcəklər və döndülər də. [9.s 81]

Möhtərəm Prezidentimizin 2022-ci ili "Şuşa İli" elan etməsi digər sahələrdə olduğu kimi, Azərbaycan təhsili qarşısında da vacib öhdəliklər qoydu. Şuşanın qədim tarixinin, zəngin mədəni irsinin, işğal dövründə ermənilər tərəfindən məhv edilən tarix-mədəniyyət abidələri, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Qarabağı, Şuşanı işğalçılardan təmizləmək üçün göstərdikləri misilsiz qəhrəmanlıqların gələcək nəsillərə aşılanması olduqca böyük əhəmiyyət daşıyır.

## *Ədəbiyyat*

1. Şuşa şəhərinə həsr olunmuş elmi konfransın materialları, 22 dekabr 2000-ci il / Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. – Bakı, 2000. – 83 s.
2. Şuşa-Azərbaycanın mədəniyyəti və tarixi incisidir: elmi konfransın materialları, 31 may 2002-ci il / Azərb. Resp. Mədəniyyət Nazirliyi; red. A. Bayramov, T. Vəliyev. – Bakı: Nağıl evi, 2003. – 44 s.
3. Köçərli, T. Qarabağ: Yalan və həqiqət / Tofiq Köçərli; red. R. Əliyev; AzEA, İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutu; "İrşad" İslam araşdırmaları mərkəzi. – Bakı: Əbilov, Zeynalov və oğulları, 1998. – 244 s
4. Əliyev, H. Dağlıq Qarabağ həqiqətləri / Həmzə Əliyev; red. İ. X. Zeynalov. – Bakı: Renessans, 2005. – 140 s.
5. Hacıyev, N. Dağlıq Qarabağın tarixindən sənədlər / Niyaz Hacıyev; Məsləhətçi və təşkilatçı. M. Məmmədov; Red. S.Xəlilova. – Bakı: Gənclik, 2005. – 192 s
6. . Məmmədov, N. Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə / Nazim Məmmədov; Red.: Q. Ə. Hacıyev. – Bakı: [s. n.], 2005. – 170 s
7. Müharibə və tarixi-mədəniyyət abidələrimiz: işğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar / Heydər Əliyev fondu; Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutu. – Bakı: [s.n.], 2006. – 63 s.

8. Hacıyeva, Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu / Zemfira Hacıyeva; red.: Y.Mahmudov, T.Mustafazadə. – Bakı: Təhsil, 2007. – 254 s
9. Şuşa şəhərinə həsr olunmuş elmi konfransın materialları: 22 dekabr, 2000-ci il / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. – Bakı, [2000]. – 81 s.
10. .Əliyev, İlham. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər: Prezident İlham Əliyevin çıxışı / İlham Əliyev // Azərbaycan. – 2021. – 17 may. – S. 9-10.
11. Əziz Şuşa, biz qayıtmışıq!: Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı-musiqi, birlik, qayıdış, ləyaqət bayramı / İlham Əliyev // Azərbaycan müəllimi. – 2021. – 21 may. – S. 1.
12. Aslanov, A. "Xarıbülbül"ün qayıdışı və Şuşadan dünyaya verilən mesajlar: Qarabağ Zəfərinin davamı olan "Xarıbülbül" musiqi festivalı daha bir möhtəşəm uğur hekayəsidir / Aslan Aslanov // Xalq qəzeti. – 2021. – 21 may. – S. 5; Respublika. – 2021. – 21 may. – S. 3; Səs. – 2021. – 21 may. – S. 8-9.
13. .Qəribli, M. Həm millətlərarası münasibətlərə, həm də dini tolerantlığa güclü təsir göstərən bir səfər...: ["Xarıbülbül" musiqi festivalı haqqında] / Məhəmmədəli Qəribli // Bakı xəbər. – 2021. – 19 may. – S. 10.
14. .Paşayeva, Q. Əziz Şuşa, biz qayıtdıq!...: ["Xarıbülbül" musiqi festivalı haqqında] / Qənirə Paşayeva // Xalq qəzeti. – 2021. – 21 may. – S. 8.
15. **Fətullayev**, Ş. Şuşa abidələri / Şamil Fətullayev; red. M. Nəcəfov; rəss. İ. Piçxadze. – Bakı: Gənclik. – 1970. – [16] s.
16. İmanov, R. Sosialist Dağlıq Qarabağı / Rəftar İmanov; AzSSR "Bilik" Cəmiyyəti. – Bakı: [s.n.], 1981. [3] s.
17. Ağayev, Ə. 150 yaşlı Şuşa məktəbi / Əjdər Ağayev // Bakı. – Maarif, 1982. – 63, [1] s.
18. Məmmədzadə, K. Şuşa – Vaqifin türbəsi / Kamil Məmmədzadə, N. A. Sərkisov; red. C. Quliyev; foto. Q. M. Hüseynzadə; Az SSR EA Tarix İn-tu, Arxeologiya və Etnoqrafiya Sektoru. – Bakı: Elm, 1986. – 103, [4] s
19. Kərimli, K. Ürəyimin şüşəsi Şuşa / Kərim Kərimli; red. V. Quliyev. – Bakı: Azərbaycan, 1993. – I Kitab. – 80 s.
20. Kərimli, K. Hələ Şuşalıykən / Kərim Kərimli; Red. V. Quliyev; Ön söz əvəzi. Əli Mahmud. – II kitab. – Bakı: Azərbaycan, 1995. – 120 s.
21. Muxtarova, T. Şuşa harayı / Təranə Muxtarova; Red.: T. Cahangirov; Rəssamı: B. Qasımov. – Bakı: Azərnəşr, 1996. – 204 s.
22Abdullayev M.İ. Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti // Azərbaycan tarixinin çağdaş problemləri məcmuəsi, Bakı, 2000, s.37-53.
23.Dəlili H.Ə. Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumat // Azərbaycan SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq 1971, M1, s.42-48.
24.Kərimova S. Çarizmin Azərbaycanın Şimalında müstəmləkəçilik siyasətində ermənilərin rolu (namizədlik dissertasiyası). Bakı, 1995.

## SHUSHA-AZERBAIJAN'S HISTORY AND CULTURE TOLERANCE AND MULTICULTURALISM CENTER

***Aliyev Sadraddin Malik***

***Summary***

Multicultural society in Azerbaijan means that representatives of many nations live in peace, tranquility, mutual understanding and peace. We can see the tradition of coexistence, which we call multiculturalism, relations based on tolerance, mutual respect and reverence, in all historical periods. The rich multicultural traditions of our people are based on tolerance, dialogue, compromise, mutual assistance, patriotism, mercy, rules of coexistence. The ethnic-religious tolerance and national-cultural diversity environment in Azerbaijan has made our

country known worldwide as a unique place of multiethnic, multi-confessional and intercultural dialogue.

Representatives of different religions and peoples live in the conditions of mutual friendship,peace, peace and cooperation, play an important role in the socio-political, economic and cultural development of the Republic, at the same time demonstrate high solidarity in the fateful issues of Azerbaijan. There is no period in the history of Azerbaijan where only Azeri Turks live. Along with us lived lezgins, jews, sakhurar, vars, talyshs, ingiloys, malokans udis, tats, kurds and other ethnic peoples. The Azerbaijani people did not discriminate against other ethnic peoples and did not expel them from their territory. Other national minorities living in Azerbaijan have mixed with our people and had a common culture.

Our state also refers our citizens of Armenian origin living in the mountainous part of Karabakh to this division. Their adoption of the laws of Azerbaijan and the restoration of their rights established in the Constitution, like other ethnic minorities, is the top priority of our state. November 2020 8 was inscribed in our history as the most glorious day. Under the leadership of Supreme Commander-in-chief Ilham Aliyev, our brave army liberated the historical, cultural and strategic importance of Azerbaijan, the main crown of Karabakh City of Shusha from the occupiers. This was the most important historic event and a major military victory among the successful counter-offensive operations carried out within 44 days. The military-diplomatic successes of Azerbaijan, especially the liberation of the strategically important city of Shusha, had a serious impact on the further course and fate of the war.

## ШУША-ЦЕНТР ИСТОРИИ, КУЛЬТУРЫ, ТОЛЕРАНТНОСТИ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА АЗЕРБАЙДЖАНА

***Алиев Садраддин Малик оглы***

***Резюме***

Мультикультуральное общество, совместное проживание разных народов гарантия мирного проживания в Азербайджана. В истории Азербайджана во все времена прослеживается традиция совместного проживания, толерантность, взаимное уважение народов друг к другу. В нашей стране совместное проживание народов разных религий проходит в духе дружбы, мира и сотрудничества и это в свою очередь вносит свой благоприятный вклад в развитие общественно-политической, экономической и культурной сферах общества. Нет такого исторического периода, когда в Азербайджане жили бы только азери тюрки. Совместно с нами жили лезгины, кюрди, сахуры, авары, талыши, ингилои, малаканы, удины, таты и другие этнические народы. Азербайджан никогда не прогнал их с этих земель и давал им равные права. В свою очередь эти народы жили с азербайджанским народом и строили совместную культурное достояния.

Армянское население проживающее в горных районах Нагорного Карабаха относятся к этому числу. Принятие ими законов Азербайджана и проживание ими в рамках законов конституции Азербайджана является приоритетным вопросом в нашей стране. 8 ноября 2020 год вписался золотыми буквами в истории нашего народа. Наши отважные войска под руководством великого полководца президента Ильхама Алиева освободили исконно азербайджанские земли и корону Карабаха город Шуша.

Эта победа стала ключевым и главным историческим событием в ходе 44 дневной войны. Военно-исторические удачи Азербайджана, освобождение Шуши стало стратегической важной целью и повлияло на судьбу и ход всех военных действий